| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 03.03.2017 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1275 |
| **ADI** | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin yaradılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin bəzi fərman və sərəncamlarında dəyişikliklər edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Xalq Qəzeti (Dərc olunma tarixi: 05-03-2017, Nəşr Nömrəsi: 50), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-03-2017, Nəşr nömrəsi: 03, Maddə nömrəsi: 353) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 05.03.2017 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 350.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 13201703031275 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 06.03.2017 |

**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin yaradılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin bəzi fərman və sərəncamlarında dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 dekabr tarixli 706 nömrəli Fərmanına, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanına və "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 725 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 16 sentyabr tarixli 212 nömrəli Fərmanının (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, 18, maddə 830; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 7, maddə 596) 14-cü hissəsində "Milli Təhlükəsizlik Nazirliyinə" sözləri "Dövlət Təhlükəsizliyi Xidmətinə" sözləri ilə əvəz edilsin.

2. "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 fevral tarixli 678 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, 2, maddə 92) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü hissədə "daxili işlər və milli təhlükəsizlik nazirliklərinə" sözləri "Daxili İşlər Nazirliyinə və Dövlət Təhlükəsizliyi Xidmətinə" sözləri ilə əvəz edilsin;

2.2. 5-ci hissədən ", milli təhlükəsizlik" sözləri çıxarılsın və həmin hissəyə " nazirliklərinə" sözündən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə" sözləri əlavə edilsin.

3. "Geodeziya və kartoqrafiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyul tarixli 738 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, 7, maddə 448; 2001, 12, maddə 755; 2004, 1, maddə 19; 2007, 6, maddə 601; 2008, 9, maddə 798; 2016, 2 (II kitab), maddə 242) 2-ci hissəsinin beşinci və altıncı abzaslarında "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

4. "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 noyabr tarixli 14 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, 11, maddə 656; 2008, 6, maddə 505) 2-ci hissəsinin üçüncü abzasında "Milli Təhlükəsizlik Nazirliyinin" sözləri "Dövlət Təhlükəsizliyi Xidmətinin" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 23 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, 11, maddə 665; 1999, 8, maddə 492; 2001, 10, maddə 640, 12, maddə 755; 2003, 10, maddələr 546, 571, 585; 2004, 1, maddə 19; 2005, 2, maddə 69, 4, maddə 299, 6, maddə 485, 10, maddə 910; 2009, 4, maddə 226) ilə təsdiq edilmiş "İnformasiyanı mühafizə vasitələrinin sertifikatlaşdırılması haqqında Əsasnamə"nin 1-ci hissəsinin altıncı abzasında "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

6. "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 7 yanvar tarixli 69 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 1, maddə 22; 2009, 7, maddə 537; 2010, 2, maddə 80) 3-cü hissəsində "milli təhlükəsizlik nazirindən" sözləri "Dövlət Təhlükəsizliyi Xidmətinin rəisindən" sözləri ilə əvəz edilsin.

7. "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 1 fevral tarixli 86 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 2, maddə 70) 2-ci hissəsində "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 371 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 7, maddə 511; 2003, 10, maddə 546; 2004, 1, maddə 19; 2006, 9, maddə 743; 2007, 5, maddə 459) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram"ın 1.2-ci, 1.4-cü, 1.5-ci, 1.12-ci, 2.8-ci, 2.14-cü, 2.21-ci, 4.2-ci və 4.3-cü bəndlərində "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

9. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 8 (III kitab), maddə 610; 2001, 10, maddə 646; 2002, 5, maddələr 273, 279, 7, maddə 413, 8, maddə 478, 9, maddə 563; 2003, 8, maddə 434; 2004, 1, maddə 19, 5, maddə 345; 2005, 1, maddə 18, 4, maddə 299, 9, maddə 799, 12, maddə 1101; 2006, 8, maddə 676, 11, maddə 935; 2007, 1, maddə 10, 3, maddə 223, 9, maddə 865, 12, maddə 1247; 2008, 1, maddələr 7, 10; 2009, 7, maddələr 531, 534; 2010, 7, maddə 615; 2011, 11, maddə 999; 2013, 5, maddə 509, 6, maddə 649, 8, maddə 900; 2014, 4, maddə 348, 6, maddə 625; 2015, 12, maddələr 1450, 1461; 2016, 4, maddələr 667, 669, 10, maddə 1644) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2-ci hissə üzrə:

9.1.1. dördüncü abzasdan "milli təhlükəsizlik," sözləri çıxarılsın və həmin abzasa "nazirlikləri," sözündən sonra "Dövlət Təhlükəsizliyi Xidməti," sözləri əlavə edilsin;

9.1.2. yeddinci abzasda "milli təhlükəsizlik" sözləri "dövlət təhlükəsizliyi" sözləri ilə əvəz edilsin;

9.1.3. səkkizinci abzasda "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin;

9.2. 3-cü hissənin üçüncü, yeddinci, onuncu və on üçüncü abzaslarında “Milli Təhlükəsizlik Nazirliyi” sözləri “Dövlət Təhlükəsizliyi Xidməti” sözləri ilə əvəz edilsin.

10. “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 8 (III kitab), maddə 611; 2002, 8, maddə 478; 2008, 3, maddələr 168, 170, 7, maddə 618; 2011, 4, maddə 279; 2013, 8, maddə 893; 2016, 4, maddə 676) 3-cü hissəsinin on ikinci abzasında “Milli Təhlükəsizlik Nazirliyi” sözləri “Dövlət Təhlükəsizliyi Xidməti” sözləri ilə əvəz edilsin.

11. “Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 iyun tarixli 500 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 6, maddə 398; 2004, 1, maddə 19; 2005, 4, maddə 299; 2007, 9, maddə 874) 2-ci hissəsinin ikinci və üçüncü abzaslarında “Milli Təhlükəsizlik Nazirliyi” sözləri “Dövlət Təhlükəsizliyi Xidməti” sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 sentyabr tarixli 583 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 9, maddə 598; 2004, 2, maddə 71, 12, maddələr 994, 1005; 2005, 10, maddə 910; 2008, 11, maddə 970; 2009, 7, maddə 521, 12, maddə 983; 2011, 2, maddə 85; 2015, 2, maddə 130, 9, maddə 980; 2016, 10, maddə 1630) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

12.1. 10.102-18-ci yarımbənddə “Milli Təhlükəsizlik Nazirliyi” sözləri “Dövlət Təhlükəsizliyi Xidməti” sözləri ilə əvəz edilsin;

12.2. 10.102-22-ci yarımbənddə “Milli Təhlükəsizlik Nazirliyini” sözləri “Dövlət Təhlükəsizliyi Xidmətini” sözləri ilə əvəz edilsin;

12.3. 11.9-cu bənddən “Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin və” sözləri çıxarılsın və həmin bəndə “Daxili İşlər Nazirliyinin” sözlərindən sonra “və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin” sözləri əlavə edilsin.

13. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 770 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, 8, maddə 490; 2008, 8, maddə 719) ilə təsdiq edilmiş “Ərazi vahidlərinin, habelə ayrı-ayrı milli təhlükəsizlik və ya müdafiə təyinatlı ərazilərin qapalı elan edilməsi və xüsusi rejimli dövlət idarəetmənin tətbiq edilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

13.1. 3.4-cü bəndin birinci abzasında və 4.2-ci bəndin ikinci abzasında “Milli Təhlükəsizlik Nazirliyinin yerli bölməsinin” sözləri “Dövlət Təhlükəsizliyi Xidmətinin ərazi orqanının” sözləri ilə əvəz edilsin;

13.2. 3.6-cı, 3.8-ci və 3.10-cu bəndlərin birinci abzaslarında “milli təhlükəsizlik” sözləri “dövlət təhlükəsizliyi” sözləri ilə əvəz edilsin;

13.3. 3.6-cı bəndin yeddinci abzasından “, milli təhlükəsizlik” sözləri çıxarılsın və həmin bəndə “ nazirliklərinin” sözündən sonra “, Dövlət Təhlükəsizliyi Xidmətinin” sözləri əlavə edilsin;

13.4. 3.11-ci bənddə “Milli Təhlükəsizlik Nazirliyinin yerli bölməsi” sözləri “Dövlət Təhlükəsizliyi Xidmətinin ərazi orqanı” sözləri ilə əvəz edilsin;

13.5. 3.13-cü bənddə “Milli Təhlükəsizlik Nazirliyini” sözləri “Dövlət Təhlükəsizliyi Xidmətini” sözləri ilə əvəz edilsin;

13.6. 3.14-cü bənddə “Milli Təhlükəsizlik Nazirliyi” sözləri “Dövlət Təhlükəsizliyi Xidməti” sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 9, maddə 486; 2007, 5, maddə 459; 2008, 6, maddə 498, 8, maddə 721; 2015, 7, maddə 837; 2016, 8, maddə 1384) ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”ın 40-cı bəndində “Milli Təhlükəsizlik Nazirliyi – MTN” sözləri “Dövlət Təhlükəsizliyi Xidməti – DTX” sözləri ilə əvəz edilsin.

15. “Poçt haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 31 avqust tarixli 115 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 8, maddə 623; 2007, 6, maddə 601; 2010, 3, maddə 180; 2014, 9, maddə 1027; 2016, 6, maddə 1056) 3.4-cü və 3.5-ci bəndlərində “Milli Təhlükəsizlik Nazirliyi” sözləri “Dövlət Təhlükəsizliyi Xidməti” sözləri ilə əvəz edilsin.

16. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 179 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 1, maddə 13; 2016, 7, maddə 1262) ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

16.1. 177-ci bəndin ikinci abzasında “Milli Təhlükəsizlik Nazirliyi” sözləri “Dövlət Təhlükəsizliyi Xidməti” sözləri ilə əvəz edilsin;

16.2. 178-ci bəndin üçüncü abzasında “Milli Təhlükəsizlik Nazirliyinə” sözləri “Dövlət Təhlükəsizliyi Xidmətinə” sözləri ilə əvəz edilsin.

17. “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 246 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 6, maddə 483; 2014, 9, maddə 1027) 2.2-ci bəndində “Milli Təhlükəsizlik Nazirliyi” sözləri “Dövlət Təhlükəsizliyi Xidməti” sözləri ilə əvəz edilsin.

18. “İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 8, maddə 704; 2013, 8, maddə 915; 2014, 11, maddə 1412) 2.5-ci bəndində “Milli Təhlükəsizlik Nazirliyi” sözləri “Dövlət Təhlükəsizliyi Xidməti” sözləri ilə əvəz edilsin.

19. “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 284 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,

2005, 8, maddə 716; 2009, 2, maddə 67; 2014, 9, maddə 1027; 2015, 2, maddə 129) aşağıdakı dəyişikliklər edilsin:

19.1. 2.3-cü, 2.4-cü və 2.11-ci bəndlərdən "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi," sözləri çıxarılsın və həmin bəndlərə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi" sözlərindən əvvəl "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti," sözləri əlavə edilsin;

19.2. 2.12-ci və 2.15-ci bəndlərdən "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi," sözləri çıxarılsın və həmin bəndlərə "Fövqəladə Hallar Nazirliyi," sözlərindən sonra "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti," sözləri əlavə edilsin.

20. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 9, maddə 798, 10, maddə 918; 2006, 5, maddə 408; 2007, 3, maddə 232, 8, maddə 765; 2008, 1, maddə 7, 8, maddə 719; 2009, 3, maddə 163; 2013, 6, maddə 654; 2014, 2, maddə 112, 9, maddə 1027, 10, maddə 1220; 2015, 7, maddə 829; 2016, 1, maddə 45, 6, maddə 1039, 8, maddə 1375) ilə təsdiq edilmiş "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı"nın 1-ci, 2-ci hissələrində, 4-cü hissəsində (hər iki halda), 7-ci, 12-ci və 13-cü hissələrində ismin müvafiq hallarında "Milli Təhlükəsizlik Nazirliyi" sözləri ismin müvafiq hallarında "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

21. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 21 iyun tarixli 420 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 6, maddə 497; 2009, 6, maddə 419; 2011, 6, maddə 498) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinin aparılması Qaydaları"nın 10.7-ci bəndində "milli təhlükəsizlik" sözləri "dövlət təhlükəsizliyi" sözləri ilə əvəz edilsin.

22. "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının icrası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli 465 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 9, maddə 742; 2015, 10, maddə 1112) 2-ci hissəsində "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

23. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 578 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 5, maddə 460) 1.4-cü və 1.5-ci bəndlərində (hər iki halda) "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

24. "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 iyun tarixli 596 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 6, maddə 609) 2.3-cü bəndində "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

25. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 17 sentyabr tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 9, maddə 864; 2016, 6, maddə 1071) ilə təsdiq edilmiş "Terror əleyhinə əməliyyatları idarəetmə üzrə Əməliyyat Qərargahının fəaliyyət qaydası haqqında Əsasnamə"nin 10-cu hissəsində "Milli Təhlükəsizlik Nazirliyinin Antiterror Mərkəzi" sözləri "Dövlət Təhlükəsizliyi Xidmətinin terrorçuluğa qarşı mübarizə üzrə müvafiq qurumu" sözləri ilə əvəz edilsin.

26. "Biometrik informasiya haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 28 oktyabr tarixli 7 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, 10, maddə 897; 2014, 9, maddə 1027) 1-ci hissəsindən "Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin və" sözləri çıxarılsın və həmin hissəyə "Səhiyyə Nazirliyinin" sözlərindən sonra "və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin" sözləri əlavə edilsin.

27. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 6, maddə 542; 2013, 1, maddə 29, 2, maddə 117, 3, maddə 246, 8, maddə 909, 10, maddə 1155, 12, maddə 1514; 2014, 5, maddələr 477, 487, 9, maddə 1027, 12, maddə 1577; 2015, 3, maddə 271, 9, maddə 1005, 12, maddə 1448; 2016, 2 (II kitab), maddə 273, 5, maddələr 859, 864, 8, maddə 1384, 9, maddə 1464, 10, maddə 1647, 11, maddə 1835) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 1.5-ci bəndindən "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi," sözləri çıxarılsın və həmin bəndə "Fövqəladə Hallar Nazirliyi," sözlərindən sonra "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti," sözləri əlavə edilsin.

28. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyul tarixli 667 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 7, maddə 676) 4.3-cü və 4.5-ci bəndlərində "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

29. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 mart tarixli 833 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 3, maddə 235; 2014, 9, maddə 1027) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi haqqında Əsasnamə"nin 3.1.12-ci yarımbəndində "Milli Təhlükəsizlik Nazirliyinin" sözləri "Dövlət Təhlükəsizliyi Xidmətinin" sözləri ilə əvəz edilsin.

30. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli 45 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 12, maddə 1512) aşağıdakı dəyişikliklər edilsin:

30.1. 2-ci hissədən "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi," sözləri çıxarılsın və həmin hissəyə "Daxili İşlər Nazirliyi" sözlərindən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti" sözləri əlavə edilsin;

30.2. 4-cü hissədə "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

~~31. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 sentyabr tarixli 594 nömrəli Fərmanı (Azərbaycan~~

~~Respublikasının Qanunvericilik Toplusu, 2015, 9, maddə 981) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi haqqında Əsasnamə"nin 3.1.15-ci yarımbəndində "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.~~ [1]

32. "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2015-ci il 4 dekabr tarixli 27-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 5 dekabr tarixli 697 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 12, maddə 1451) aşağıdakı dəyişikliklər edilsin:

32.1. 2.1-ci bənddə "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin;

32.2. 3-cü hissədə "Milli Təhlükəsizlik Nazirliyinə" sözləri "Dövlət Təhlükəsizliyi Xidmətinə" sözləri ilə əvəz edilsin.

33. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 347 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 3 (I kitab), maddə 186; 2016, 5, maddə 927, 9, maddə 1464) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"ın 100-cü bəndinin üçüncü abzasından "Milli Təhlükəsizlik," sözləri çıxarılsın və həmin abzasa "Nazirliklərinin" sözündən sonra ", Dövlət Təhlükəsizliyi Xidmətinin" sözləri əlavə edilsin.

34. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 7, maddə 540; 2006, 9, maddə 743; 2007, 2, maddə 87, 10, maddə 1011; 2008, 3, maddə 168, 8, maddə 733; 2009, 6, maddə 424, 11, maddə 886; 2010, 5, maddə 435, 7, maddə 610; 2011, 2, maddələr 85, 134; 2014, 5, maddə 477) ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın 3.2-ci bəndindən "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi," sözləri çıxarılsın və həmin béndə "Səhiyyə Nazirliyi," sözlərindən sonra "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti," sözləri əlavə edilsin.

35. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1880 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 12, maddə 1138; 2008, 1, maddə 9, 3, maddə 168; 2009, 12, maddə 1043; 2010, 2, maddə 80; 2014, 5, maddə 477; 2016, 8, maddə 1384, 9, maddə 1470) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 26-cı və 31-ci hissələrində "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

36. "Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin hökumətləri arasında cinayətkarlığa, xüsusən onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında" Sazişə "Terrorçuluğa qarşı mübarizə haqqında" Əlavə Protokolun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 aprel tarixli 2123 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 4, maddə 379) aşağıdakı dəyişikliklər edilsin:

36.1. 1-ci hissədə "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin;

36.2. 2-ci hissədə "Milli Təhlükəsizlik Nazirliyinin" sözləri "Dövlət Təhlükəsizliyi Xidmətinin" sözləri ilə əvəz edilsin.

37. "Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyada nəzərdə tutulmuş səlahiyyətli orqanların müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 12 may tarixli 264 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 5, maddə 345) 1-ci hissəsində "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

38. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, 12, maddə 1217; 2012, 12, maddə 1322; 2014, 5, maddə 477, 9, maddə 1027; 2016, 8, maddə 1384, 9, maddə 1470) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın 3.1-ci bəndinin üçüncü abzasından və 3.6-cı bəndinin ikinci abzasından ", Milli Təhlükəsizlik" sözləri çıxarılsın və həmin abzaslarda "nazirlikləri," sözündən sonra "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti," sözləri əlavə edilsin.

39. "Cinayət mühakimə icraatı iştirakçılarının müdafiəsi haqqında" Saziş üzrə səlahiyyətli orqanların müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 yanvar tarixli 1971 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 1, maddə 19) 1-ci hissəsində "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

40. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 iyun tarixli 2966 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 6, maddə 704; 2014, 9, maddə 1027; 2016, 2 (II kitab), maddə 334, 9, maddə 1470) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013–2018-ci illər üçün Dövlət Proqramı"nın 4.1.2-ci, 4.1.18-ci, 4.1.20-ci, 4.3.1-ci, 4.3.2-ci, 4.3.5-ci, 4.3.7-ci, 4.4.12-ci və 4.4.31-ci yarımbəndlərində "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

41. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli 667 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, 7, maddə 894; 2016, 8, maddə 1384, 9, maddə 1470) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın 13.2.9-cu, 13.2.10-cu, 13.3.3-cü–13.3.6-cı, 13.3.8-ci, 13.3.9-cu, 13.6.1-ci, 13.8.1-ci və 13.8.5-ci yarımbəndlərində "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 mart 2017-ci il
1275

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 29 may 2019-cu il tarixli **714** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 30 may 2019-cu il, , Azərbaycan**

**Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 866**)

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 29 may 2019-cu il tarixli **714** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 30 may 2019-cu il, , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 866**) ilə 31-ci bənd ləğv edilmişdir.